**AZƏRBAYCAN RESPUBLİKASI**
**TARİF (QİYMƏT) ŞURASININ**
**KATİBLİYİ**

Bakı – AZ1000, Üzeyir Hacıbəyov küçəsi 40, Hökumət evi, 1-ci Ala qapı
Tel.: 598-38-64, Faks: 493-48-67


№ 03/07-5/9 "23" "02" 2016 il

admin@sheki.org
elektron ünvanının sahibi
vətəndaş Aydın Məmmədova

Müraciətinizə baxılmasına dair

Hörmətli Aydın Məmmədov!

İşsizlik müavinəti almaq üçün müraciət edən vətəndaşların əmlakına dair məlumatların ödənişsiz əldə olunması ilə bağlı məktubunuza Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyində aidiyyəti üzrə baxılmışdır.

Bildiririk ki, işsiz statusu almaq hüququna malik olan vətəndaşa mülkiyyətində torpaq payı olmaması haqqında arayış Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 yanvar tarixli "İşsizlərin qeydiyyata alınması Qaydalarının təsdiq edilməsi haqqında" 14 nömrəli Qərarına əsasən yerli icra hakimiyyətinin ərazi üzrə nümayəndəliyi tərəfindən verilməlidir.

Ölkə Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 5.1.9-cu yarımbəndinə əsasən ərazidə yaşayan vətəndaşlara onların şəxsiyyətini, ailə vəziyyətini təsdiq edən arayışlar və digər arayışlar vermək inzibati ərazi dairələri üzrə və sahə inzibati ərazi dairələri üzrə yerli icra hakimiyyəti başçısı nümayəndələrinin vəzifələrinə aid edilmişdir.

Hörmətlə,

Şuranın katibi (aparat rəhbəri) İlkin Məcidov